Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

**KİVDF**

**Layihənin istiqaməti: "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"**

# Bəxtiyar Vahabzadə: ümummilli vəhdət nidası

(II YAZI)

**Bu çağacan Rus İmperiyası generalının üzünə iki şəxs tüpürüb: XIX əsrdə Qafqaz mücahidi Şeyx Şamil, XX əsrin 90-cı ilində xalqına divan tutulduğu 20 Yanvarın ertəsi günü Azərbaycan şairi Bəxtiyar Vahabzadə Fövqəladə vəziyyətdə Bakı şəhər komendantı general Dubinyakın üzünə. Bəxtiyarın bu hərəkəti – onun təkcə milli ləyaqətimizin qorxmaz müdafiəçisi olduğunun deyil, həm də sənətində ədalətsizliyə üsyankar münasibətinin rəmzi, əsilzadə jestidir.**

Bəxtiyar Vahabzadənin vətənpərvər poeziyasına münasibətdə müxtəlif zövqlü, dünyagörüşlü insanların, hətta bir-birinə zidd siyasi qüvvələrin vahid bir mövqedən çıxış etməsi bəlkə də Azərbaycanın gələcək taleyinin müəyyənləşməsində həlledici simvolik məqamdır. Deməli, bütün Azərbaycan Bəxtiyar nöqtəsində birləşə bilər! Buna görə də ümummilli vəhdət yaradan düşmənəsipər zəncirin Bəxtiyar halqəsi qırılmamalı, sındırılmamalı, əksinə, möhkəmləndirilməli, gücləndirilməlidir!



Azman türk dünyasının siyasət və sənət korifeyləri də Bəxtiyar Vahabzadə yaradıcılığının birləşdirici türkçülük qayəsinə, vəhdətyaradıcı Azərbaycançılıq missiyasına, dərin fəlsəfi-poetik mahiyyətinə, bəşəriyyətçiliyinə görə bu Böyük İstiqlal Şairinə zamanın klassiki səviyyəsində qiymət vermişlər: «...Sizin ədəbi yaradıcılığınız bütün türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə yaxından əlaqəlidir. Odur ki, Sizi sadəcə Azərbaycanlı qardaşlarımızın deyil, çağdaş türk dünyasının qələm ustadı olaraq salamlayıram» (Süleyman Dəmirəl); «...İndiki dövrdə Bəxtiyar Vahabzadənin yaradıcılığı milli-poetik fikrin ən böyük nailiyyətlərindən biridir... Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində feil olmağı bacarasan, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən» (Çingiz Aytmatov); «Bəxtiyar Vahabzadə bütün ölkədə tanınan və sevilən şairdir... Onun poeziyasında Şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb...» (Oljas Süleymenov); «Bəxtiyar Vahabzadə fəlsəfi fikirlərini şeir dili ilə ifadə edən nadir şairlərdəndir. Onun fikirləri bəşəri, lakin duyğuları millidir. Mən onu «Gülüstan» poeması ilə tanımağa başlamışam. «Gülüstan» poeması... ayrılmışları birləşməyə çağıran bir manifest kimidir.., bölünən və kökündən ayrılan bir xalqın etiraz qışqırtılarıdır. Bəxtiyar Sovet hakimiyyətinin və istibdadının lap kəskin dövründə... xalqında milli şüur oyatmağa çalışmışdır» (Cavad Heyət); «Bəxtiyar Vahabzadə bütün türk dünyasının ortaq səsi, aydınlıq üzü və gözəllik cizgisi, rəmzidir! Azərbaycan istiqlalının qazanılmasında Bəxtiyar Vahabzadə kimi mütəfəkkir şairlərin, yazıçıların müstəsna bir yeri var» (Yavuz Bülənd Bakilər); «...Bu gün biz Vahabzadə şeirinin qanadları ilə uçuruq» (Əhməd Bican Ercilasun); «...Bəxtiyar Vahabzadə bədii-fəlsəfi mühakimə uğrunda döyüşən fikir şairidir. Şərq şeirinin, klassik Azərbaycan poeziyasının ən dərin qatlarından süzülüb gələn bu keyfiyyət Bəxtiyar yaradıcılığında yeni bir parlaqlıqla üzə çıxır... O, özünü həmişə zaman axarının ön cərgəsində hiss edir» (Xəlil Rza Ulutürk).

Zaman və sənət öndəri Bəxtiyar Vahabzadənin ümumxalq marağını mükəmməl formada, ardıcıl şəkildə və israrla ifadə etməsi son vaxtlar Azərbaycan mədəniyyətinin öyrənilməsinə daha çox diqqət göstərən Amerika Birləşmiş Ştatlarında (bu ölkədə və Azərbaycanda şairin ingiliscə iki kitabı nəşr olunub) duyulur və təqdir olunur (Bax: Stephen Kinzer. In Azerbaijan, Poets Tear the Fences Down. «New York Times», «International Herald Tribune», 14 oktober, 1997).

Vətən müstəqilliyi ideyasını bir palıd ağacı əkirmiş kimi cücərdib yetişdirən Bəxtiyar Vahabzadənin ictimai-siyasi fəaliyyəti və ədəbi yaradıcılığı Azərbaycanın suverenliyi dövründə öz əvvəlki yanar vətəndaşlıq mövqeyindən və bədii-fəlsəfi məntiqindən qırılmadan daha sərrast milli-ideoloji siqlət, mükəmməl poetik monumentallıq və dərin müdriklik qatı kəsb edib. Şairin poeziyasında ümummilli vəhdət nidası ilə sanki ana vətən özü dilə gəlib söyləyir:

*Yad əlində tapdanırkən şərəf-şan,*
*Türkün türklə ədavətə haqqı yox,*
*Hər işimiz başlanırkən sıfırdan,*
*Türkün türklə ədavətə haqqı yox.*

*Dayaq olsun bu gün gərək sol sağa,*
*Bu vəhdətdən yurdumuza gün doğa.*
*Bütün millət dönməliykən yumruğa,*
*Türkün türklə ədavətə haqqı yox.*

**Bu çağacan Rus İmperiyası generalının üzünə iki şəxs tüpürüb: XIX əsrdə Qafqaz mücahidi Şeyx Şamil, XX əsrin 90-cı ilində xalqına divan tutulduğu 20 Yanvarın ertəsi günü Azərbaycan şairi Bəxtiyar Vahabzadə Fövqəladə vəziyyətdə Bakı şəhər komendantı general Dubinyakın üzünə.**

*Tarix bizi imtahana çəkirkən,*
*İmdad umur hamımızdan bu vətən.*
*Dünya da haqq səsimizə kar ikən,*
*Türkün türklə ədavətə haqqı yox.*

*Sındırıldı dəyirmanda pərimiz,*
*Əsir oldu divə bizim Pərimiz.*
*Dağılırkən ocağımız, pirimiz,*
*Türkün türklə ədavətə haqqı yox.*

*Nə çox imiş bu torpağa göz dikən,*
*Baxa-baxa gözümüzə mil çəkən.*
*Düşmənimiz dostumuzdan çox ikən,*
*Türkün türklə ədavətə haqqı yox.*

*Sinəsini yarmalıyıq zülmətin,*
*Bu məqsədlə getdiyimiz yol çətin.*
*Hər gün neçə şəhid verən millətin*
*Bir-birinə ədavətə haqqı yox.*

Bəxtiyar Vahabzadənin zəngin, məhsuldar yaradıcılığında müstəqillik dövrünün Azərbaycan həyatına özünəməxsus sənətkar baxışı dəqiq, aydın vətəndaş münasibətilə həmahəngcə meydana çıxır:

*Bu xalqı sökənlər müdam «xalq» dedi,*
*Nə özü ucaldı, nə endi xalqa.*
*Ömründə bir dəfə xalq deməyənlər*
*Kürsü məramilə söykəndi xalqa.*

*Özgənin fikrini bəyənməyənlər,*
*Özünü öyməkçün xalqı öyənlər,*
*Gah ona, gah buna «düşmən» deyənlər*
*Əslində özləri düşməndi xalqa.*

*Yüz yollu yüz nəfər kütlədir ancaq*
*Bir yollu beş nəfər qüvvədir ancaq.*
*Yüz yollu məmləkət ölkədir, ancaq*
*Bir sözlü məmləkət Vətəndi xalqa.*

Çağdaş Azərbaycan poeziyasının patriarxı Bəxtiyar Vahabzadənin, təqribən, 60 illik yaradıcılıq fəaliyyətinin (1945-2005) barı olan on bir cildliyi "Azərbaycan" və "Çaşıoğlu" nəşriyyatları tərəfindən çap olunub. Mütəfəkkir sənətkarın bədii yaradıcılığının bütün mərhələləri və janrları ilə, ictimai-siyasi fəaliyyətini bütün tərəfləri ilə əhatə edən, ümumiyyətlə onun yaradıcı şəxsiyyətinin gerçəyini görükdürən bu Külliyyat təkcə milli ədəbiyyatımızın deyil, bütövlükdə mədəniyyətimizin böyük hadisəsidir. Öncədən qeyd edək ki, Külliyyatın elə birinci cildində müəllifin xüsusi vurğuladığı bir məqama diqqətli olmaq gərəkdir: Şair, yaradıcılığının ilk mərhələlərində, xüsusən 1955-60-cı illərdə yazdığı əsərləri yenidən işləyib və o tədqiqatçılarından da xahiş edir ki, həmişə əsərlərinin "ən son çapını məqbul saysınlar". Elə bu fakt göstərir ki, böyük sənətkar öz yaradıcılığında yüksək səviyyəliliyə, ayrı-ayrı əsərlərinin bədii və zaman taleyinə nə qədər həssas və məsuliyyətlidir. Milli Ruhumuzun poetik ensiklopediyası olan bu Külliyyat – bizim bütün zamanlar üçün ən böyük sərvətlərimizdəndir.

Bəxtiyar Vahabzadənin poetik yaradıcılığının, elmi axtarış və dəyərləndirmələrinin, eyni zamanda, ictimai-siyasi fəaliyyətinin geniş panoram-mənzərəsini yaradan Külliyyat müasir ədəbiyyat elminin ən yüksək səviyyəsində tədqiq olunmağa layiqdir. Biz isə daha çox poeziyası və bu poeziyanın ideya-fəlsəfi motivləri üzərində diqqət cəmlədiyimiz Külliyyat və onun yaradıcısı haqqında ümumiləşdirmələrimizi belə sonuclaya bilərik:

I. Külliyyat – Bir Əsərdir, tam bir Poetik Candır. Bəxtiyar Vahabzadənin ayrı-ayrı dövrlərə, janrlara məxsus əsərləri Külliyyatda bütöv bir orqanizm təşkil edir.

II. Külliyyat – ona görə Bir Əsərdir ki, o, şairin dünyanı – Vəhdət kimi dərk edən və sənətində dərk etdirən dünyagörüşünün məhsuludur. Sənətkarın poetik harmoniyasında Vəhdət – dünyanın sonsuz, qutsal, dadlı rəngarəngliyinin bəliridir, bu Büllurun sayrışmalarında hər zərrə özünü görür və idrak edir: bu harmoniyada bulunmaq nə qədər xoşdur!



**Rahid Ulusel**
**Fəlsəfə elmləri doktoru, professor**

III. Bəxtiyar Vahabzadə Külliyyatı – poetik Etikadır: daim insanı (həm də bu sənətin yaradıcısını!) insanlararası, toplumlararası, dünyalararası münasibətlərin ən yaxşısını, zərifini, ürəyəyatımlısını qurmağa, aramsız təkmilləşdirməyə, öz-özünə hesabat verməyə, öz-özünlə vuruşmada İblisi deyil, İnsaniliyi qalib çıxartmağa, katarsislərdən keçməyə, durulub-aydınlanmağa yönəldən Etika. Bu Etika – Kosmik Əxlaqın bir hissəsidir. Onu yetərincə kamil başarınca, insan – təkcə Yeryaradıcı deyil, Kainatyaradıcı bir başlanğıc-varlıq missiyasına yüksələ bilər.

IV. Dünyanın İlahi Orqanikasını özünün Söz çevrəsində yaradan şair, Külliyyatında Əbədiyyəti və onun Mənası, Zirvəsi, Cövhəri – Tanrını eşidir, duyur və duyurur. Bu – ümumiyyətlə, dünya poeziyasının böyük Enerji-İdeya mənbəyidir ki, ruhsuzlaşma üzündən getdikcə sozalmaqdadır...

*...Dünyaya şəfəqlər kimi Tanrım səpələnmiş*
*Qəlbin gözü yanmazsa, görünməz gözə Allah!..*

V. Min illərin mənəvi yaddaşı (müqəddəslik, ülviyyət, kökəbağlılıq, milli sərvətlərin qədrini bilmə, qoruma və zənginləşdirmə, milli qürur, ailə çevrəsindən Vətən sərhədlərinəcən milli varlığı canında duyma, ruhunda yaşatma...) bütün təbii axarları ilə Bəxtiyar Vahabzadənin Söz Sənətinə süzülüb və burada okeanlaşaraq yenidən xalqın milli sərvətinə, mənəvi yaddaşına çevrilib.

VI. Bəxtiyar Vahabzadənin yaradıcılığı bir daha təsdiq edir ki, milli poetik ənənələrin enerjisi tükənməzdir.Bu tükənməzlikdən binə tutan sənət milli mədəniyyəti ümumbəşəri mədəniyyətə daşımaq, ona qovuşdurmaq, onda qərar tapdırmaq gücündədir.

VII. Bəxtiyar Vahabzadənin yaradıcılığı bir daha təsdiq edir ki, Şərq mədəniyyətinin, Şərq ruhunun enerjisi tükənməzdir. Çünki bu qat – mayasında insan mənəviyyatının təkamülünü yaşadan İlahi Proqramın kodları ilə qurulub. Şair bu böyük Mənəviyyat Məbədinin bir neçə kərpicini yonub-cilalayıb-hörən bənnadır. Külliyyat – Məbəddə kərpic məqamındadır...

Bəxtiyar Vahabzadənin, ürəyində Zaman döyünən, Tarix yaşanan, Millətin ağrıları qövr edən nəcib, insani, kövrək və üsyankar poeziyasında Azərbaycan ruhu gəzişir. Milli əxlaqımızın ucalıq, Vətən duyğularımızın ölməzlik, Azərbaycanımızın ilahilik rişələri, şah damarları Bəxtiyar şerinin qəlbində birləşir. Buradan doğma yurdun canına uludan ulu, durudan duru, təzədən təzə ideya, söz, hikmət qanı axır...

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***